*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 18 oktyabr 2014-cü il | № 79 (1896) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana rəsmi səfəri

Tacikistan Respublikasına rəsmi səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 16-da Düşənbədə Millət Sarayında rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvləri Prezident Emoməli Rəhmona, Tacikistan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə təqdim olundu.

* * *

Oktyabrın 16-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olub.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

* * *

Oktyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub.

* * *

Oktyabrın 16-da sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Tacikistan Prezidenti Emoməli Rəhmon və Azərbaycan Prezidenti İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış ediblər.



### Tacikistan Prezidenti Emoməli Rəhmonun bəyanatı

- Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri.

Bu gün biz Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevin ölkəmizə rəsmi səfəri çərçivəsində onunla məzmunlu və konstruktiv görüş keçirdik. Biz görüşdə ikitərəfli, regional və beynəlxalq xarakterli bir çox məsələləri müzakirə etdik. Mən qarşılıqlı əlaqələrimizin indiki vəziyyətindən məmnun olduğumuzu bildirdim. Qeyd edildi ki, Tacikistan Azərbaycan Respublikası ilə əməkdaşlıq məsələlərinə böyük diqqət yetirir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə toxunduq, qarşılıqlı faydalı əməkdaşlığı tənzimləyə və inkişaf etdirə biləcəyimiz prioritet sahələri qeyd etdik. Biz bu kontekstdə Tacikistanda hidroenergetika və neft-qaz sahəsinə aid qurğular tikilməsində, mineral ehtiyatların mənimsənilməsində Azərbaycanın işgüzar dairələrinin investisiya fəaliyyətinin gücləndiriləcəyinə və iki dövlətin bank sistemləri arasında əməkdaşlığa ümid etdiyimizi bildiririk.

Vurğulandı ki, ölkələrimiz arasında qarşılıqlı ticarətin inkişafına əngəl törədən amillərdən biri nəqliyyat-kommunikasiya imkanlarının məhdud olmasıdır. Ölkələrimizin coğrafi mövqeləri nəzərə alınmaqla, təbii ki, bu cür ticarət zəruri infrastruktur yaradılmasını tələb edir. Bu baxımdan biz Hökumətlərarası Komissiyanın daimi Katibliyi Bakıda yerləşən TRASEKA layihəsi çərçivəsində Böyük İpək Yolunun bərpa olunmasında maraqlıyıq. Biz həm də Tacikistan ilə Azərbaycan arasında birbaşa aviareys açılmasında maraqlıyıq.

İkitərəfli mədəni və humanitar əlaqələrimizi yüksək qiymətləndirərək bu sahələrdə qarşılıqlı fəaliyyəti genişləndirmək barədə razılığa gəldik. Əcdadlarımızın böyük mədəni irsini daha geniş təbliğ etməyə yönəlmiş yeni təkliflər səsləndi. Məsələn, mən gələn il hər iki ölkədə Azərbaycan xalqının böyük oğlu Nizami Gəncəvinin əsərlərinə həsr edilmiş bir sıra tədbirlərin keçirilməsini təklif etdim. Biz, həmçinin regional və beynəlxalq xarakterli məsələləri, o cümlədən Əfqanıstanda vəziyyəti müzakirə etdik.

Dağlıq Qarabağ münaqişəsi bizim müzakirələrin gedişində mühüm mövzulardan biri oldu. Mən bu problemlə əlaqədar bizim nöqteyi-nəzərimizi ifadə edərək bildirdim ki, Tacikistan müharibənin bütün dəhşətlərini görmüş bir ölkə kimi, münaqişənin dinc yolla, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll edilməsindən ibarət prinsipial mövqeyin tərəfdarıdır. Eyni zamanda, biz çoxtərəfli formatda gələcək əməkdaşlıq məsələlərinə də diqqət yetirdik. Qeyd etdik ki, beynəlxalq və regional xarakterli bir çox məsələlər üzrə ölkələrimizin mövqeləri üst-üstə düşür və ya yaxındır. Tacikistanın və Azərbaycanın həmin məsələlərə konseptual yanaşmaları BMT, ATƏT, MDB, İƏT və EKO çərçivəsində Tacikistan-Azərbaycan münasibətlərinin dinamik və ardıcıl inkişafına şərait yaradır.

Görüşün yekunları ilə əlaqədar bəyan etmək istəyirəm ki, biz Tacikistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gələcəyinə nikbinliklə baxırıq, bu münasibətlərin daha da genişlənməsi və dərinləşməsi üçün əlimizdən gələni etmək əzmindəyik. İndi isə mən böyük məmnuniyyətlə əziz qonağımız - Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevdən öz fikirlərini söyləməsini xahiş etmək istəyirəm. Buyurun.

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Sağ olun, hörmətli Emoməli Şərifoviç!

İlk növbədə, məni qardaş Tacikistana rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Tacikistan torpağına ayaq basdığımız ilk andan mənə və nümayəndə heyətimin üzvlərinə göstərilən qonaqpərvərliyə görə də təşəkkür edirəm.

Bu, mənim Tacikistana ikinci rəsmi səfərimdir. Emoməli Şərifoviç də Azərbaycanda iki dəfə rəsmi səfərdə olub. Bu fakt özlüyündə bizim münasibətlərimizin yüksək səviyyəsinə dəlalət edir. Çünki bizim aramızda çox fəal siyasi dialoq var. Biz müxtəlif beynəlxalq tədbirlər - sammitlər, konfranslar çərçivəsində də müntəzəm görüşürük, regional təhlükəsizlik, dünya siyasəti və ikitərəfli münasibətlərimizlə bağlı aktual məsələlərə dair müntəzəm fikir mübadiləsi aparmaq imkanımız var.

Emoməli Şərifoviçin artıq qeyd etdiyi kimi, bizim gündəliyimiz çox genişdir. Bu gün biz qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərini müzakirə etdik. Siyasi münasibətlərimizin çox fəal olması bütün başqa sahələrdə də əlaqələrin fəal inkişafını nəzərdə tutur. Biz bir sıra beynəlxalq təşkilatlarda birgə iştirak edir və bir-birimizi dəstəkləyirik. Fürsətdən istifadə edib, Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına üzv seçilərkən ölkəmizin namizədliyini dəstəklədiyinə görə Tacikistan Prezidentinə bir daha şəxsən təşəkkürümü bildirmək istərdim. Bu dəstək çox vacib idi və biz iki il ərzində bu yüksək beynəlxalq orqanda həm özümüzü, həm də bütün dostlarımızı, tərəfdaşlarımızı təmsil etdik.

Bu gün imzalanan siyasi Bəyannamə bizim gələcək münasibətlərimizin bütün spektrini müəyyənləşdirir. Çox böyük əhəmiyyət kəsb edən bu siyasi sənəddə bizim prioritetlər, birgə gələcəyimiz barədə təsəvvürlərimiz əks olunub. Mən həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində prinsipial mövqeyinə görə Tacikistana təşəkkürümü bildirmək istərdim. Bizim indicə imzaladığımız Bəyannamədə qeyd edildiyi kimi, bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməklə tənzimlənməlidir. Bu qətnamələrin qəbul edildiyi vaxtdan 20 ildən çox keçir, lakin təəssüf ki, onlar yerinə yetirilmir. Qətnamələrdə aydın deyilib ki, erməni işğalçı qüvvələri Azərbaycan ərazisindən çıxarılmalıdır. Münaqişənin beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq surətdə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tənzimlənməsi bizim regionda sülhün təmin edilməsi üçün yeganə mümkün yoldur.

Bu gün biz iqtisadi sahədə qarşılıqlı fəaliyyətlə bağlı məsələləri müzakirə etdik. Əlbəttə, əmtəə dövriyyəsinin həcmi bizi qane edə bilməz, lakin Birgə Hökumətlərarası İqtisadi Komissiyanın dünən keçirilmiş iclası və onun nəticələri barədə bizə məruzə edilənlər nikbin olmağa əsas verir ki, biz əmtəə dövriyyəsini qısa müddətdə artıra biləcəyik. Bu istiqamətdə konkret addımlar atılır. Nəqliyyat sahəsində, xüsusən Azərbaycanın və regionun investisiya və nəqliyyat infrastrukturu nəzərə alınmaqla, gözəl imkanlar var. İlk növbədə, Azərbaycanda, Xəzər regionunda ən iri liman olacaq Yeni Beynəlxalq Dəniz Limanının açılması, habelə gələn il başa çatdırmağı planlaşdırdığımız Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi yeni imkanlar yaradır. Bu, Asiyadan Avropaya və əks istiqamətdə malların tranziti üçün ən qısa, ən səmərəli və ucuz yoldur.

Bu gün biz əməkdaşlığımızın humanitar aspektləri barədə çox danışdıq. Burada yaxşı təcrübə var. Biz həm tarix, həm də mədəniyyət baxımından bir-birimizə yaxın xalqlarıq, eyni sivilizasiyanın nümayəndələriyik. Əlbəttə, bunlar bizi yaxınlaşdırır. Buna görə biz gələcəkdə də mədəni proqramlarla bağlı müxtəlif tədbirlər keçirəcəyik. Tacikistanda Azərbaycan Mədəniyyəti günləri, Azərbaycanda Tacikistan Mədəniyyəti günləri böyük uğurla keçdi və xalqlarımız bizim bir-birimizə nə qədər yaxın olduğumuzu bir daha gördülər.

Bu gün biz regional təhlükəsizlik, terrorizmlə mübarizə məsələlərini də müzakirə etdik. Bizdən o qədər də uzaq olmayan regionda vəziyyət, əlbəttə, bizi narahat edir. Regionda təhlükəsizliyi təmin etmək üçün biz mütərəqqi qüvvələrin səylərini birləşdirməliyik. Tacikistanda və Azərbaycanda çox müsbət inkişaf dinamikası var, sabitlik təmin olunub, iqtisadi, sosial məsələlər həll edilir. Buna görə bizim ölkələrdə təhlükəsizliyə daxili təhdidlər yoxdur. Bizi narahat edən bütün amillər sərhədlərimizdən kənardadır. Buna görə, sərhədlərimizin möhkəmləndirilməsi, habelə regional təhlükəsizliyə töhfəmiz fəal müzakirə etdiyimiz məsələlərdir.

Onu da bildirmək istərdim ki, Emoməli Şərifoviçin rəhbərliyi ilə Tacikistanda həyata keçirilən dəyişiklikləri Azərbaycanda böyük maraqla izləyirlər. Siz davamlı iqtisadi artımı, bir sıra sosial məsələlərin həllini təmin edirsiniz. Tacikistan regionda, dünyada böyük nüfuz sahibidir. Siz öz regionunuzda qarşılıqlı iqtisadi fəaliyyət, regional təhlükəsizlik baxımından çox mühüm rol oynayırsınız və əlbəttə, Düşənbədəki dəyişiklikləri buraya gələn adi insanlar da görürlər. Mən burada bir neçə il əvvəl olmuşdum, indi görürəm ki, böyük dəyişikliklər baş verib, yeni gözəl binalar tikilib, ictimai yerlər abadlaşdırılıb, parklar salınıb. Bütün bunlar insanlar, onların rahatlığı, firavanlığı üçün edilir. Müstəqilliyin ilk illərində həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibələrinin getdiyi dövrdə, habelə müstəqillik əldə edilənə qədər, bizim hələ müstəqil dövlətlər olmadığımız vaxtda çox çətinliklərlə üzləşən xalqlarımız yaxşı yaşamağa layiqdirlər. Mənim fikrimcə, həm Tacikistan xalqı, həm də Azərbaycan xalqı müstəqilliyin üstünlüklərini görür. Axı, biz yalnız müstəqillik dövründə bu cür böyük uğurlara nail ola bilmişik. Biz sizin dostlarınız, qardaşlarınız kimi uğurlarınıza sevinirik. Əminik ki, Tacikistanın dinamik inkişafı davam edəcək və bu, sizin xalqın, bütün regionun xeyrinə olacaq.

Emoməli Şərifoviç, qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Fürsətdən istifadə edib, Sizin üçün münasib olan istənilən vaxtda Sizi Azərbaycana dəvət etmək istəyirəm. Sağ olun.

* * *

Oktyabrın 16-da Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomunun təntənəli təqdim edilməsi mərasimi keçirilib.

Universitetin rektoru Mahmadyusuf İmomov bu ali təhsil ocağının Elmi Şurasının Azərbaycan Prezidentinə Fəxri Doktor adının verilməsi və Elmi Şuranın fəxri üzvü seçilməsi ilə bağlı qərarını oxudu.

Sonra Azərbaycan Prezidentinə Fəxri Doktor diplomu və mantiyası təqdim olundu.

Dövlətimizin başçısı universitetin professor-müəllim heyəti və tələbələri qarşısında çıxış etdi.

* * *

Oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Düşənbənin "Dusti" meydanındakı "Tacikistanın milli həmrəyliyi və dirçəlişi" xatirə kompleksində İsmoil Somoni abidəsini ziyarət edib.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Tacikistana rəsmi səfəri çərçivəsində bu ölkənin parlamentinin aşağı palatasının sədri Şükürcon Zuxurovla görüşüb.

Görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi, ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində parlamentlərin rolunun əhəmiyyəti vurğulandı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Tacikistanın Baş naziri Koxir Rasulzoda ilə görüşüb.

Görüşdə ikitərəfli münasibətlərin perspektivləri haqqında fikir mübadiləsi aparıldı.

* * *

Oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına rəsmi səfəri başa çatdı.

**AzərTAc-ın materialları əsasında**

## 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Dövlət müstəqilliyinin əldə edilməsi xalqımızın ən böyük nailiyyətlərindən biridir. Əldə edilmiş müstəqilliyin, vətəndaş birliyinin, həmrəyliyin, sabitliyin qorunub saxlanılması, Azərbaycanın müstəqil dövlət olaraq dünya dövlətləri arasında rolunun və nüfuzunun möhkəmləndirilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında regionun lider dövləti kimi beynəlxalq nüfuzunu və iqtisadi qüdrətini artıran ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi yaxşılaşdırılmış, respublikamızın müdafiə qüdrətinin artırılması sahəsində böyük uğurlara nail olunmuş və müstəqilliyimiz daha da möhkəmlənmişdir.

İnanıram ki, siz silah və texnikanın sirlərini dərindən mənimsəyəcək, bilik və bacarığınızı, ata və babalarımızın qəhrəmanlıq nümunələrindən bəhrələnərək döyüş qabiliyyətinizi daha da artıracaq, hər an dövlət müstəqilliyimizin qorunması və işğal olunmuş torpaqlarımızın azad edilməsi naminə döyüşə hazır olacaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, təlimlərdə, eyni zamanda döyüş hazırlığının artırılmasında uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş insanların problemləri müzakirə edilib

***Oktyabrın 15-də Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov ABŞ-ın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Derek Hoqan və Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Bakıdakı nümayəndəliyinin rəhbəri xanım Bruk Ayşam ilə görüşüb.***

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən AzərTAc-a bildiriblər ki, Azərbaycanda həyata keçiriləcək humanitar layihələr və gələcək planlarla əlaqədar keçirilən görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bu münaqişə nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş insanların problemləri, onların həyat şəraitinin yaxşılaşdırılmasına dair müzakirələr aparılıb.

Baş nazirin müavini ölkələrimiz arasındakı əməkdaşlığın bütün sahələr üzrə yaxşı əsaslar üzərində qurulduğunu, əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. Əli Həsənov Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma ocaqlarından didərgin salınmış soydaşlarımıza istər ABŞ-ın ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar və inkişaf təşkilatlarının, istərsə də Birləşmiş Ştatların Bakıdakı səfirliyinin göstərdiyi humanitar yardımlara, həyata keçirdikləri humanitar və inkişaf layihələrinə görə təşəkkürünü bildirib, bu sahədəki əməkdaşlığın böyük önəm daşıdığını vurğulayıb.

ABŞ-ın ölkəmizdəki səfirliyinin müxtəlif vaxtlarda Bakıdakı yataqxanada, Müşfiqabad qəsəbəsində və Gəncə şəhərində yeni salınmış qəsəbədə məskunlaşan məcburi köçkünlərin həyat şəraiti ilə yerində tanış olduğunu, səfirlik tərəfindən müxtəlif layihələrin həyata keçirildiyini minnətdarlıqla xatırladan Əli Həsənov qonaqlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

ABŞ-ın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, azərbaycanlı qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, onların doğma ocaqlarına qaytarılmasına hər zaman xüsusi diqqət verdiyini deyən Derek Hoqan Azərbaycanda gedən sürətli iqtisadi inkişafı, Azərbaycan dövlətinin qısa müddətdə beynəlxalq aləmdə böyük nüfuz sahibi olmasını, qaçqınların və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işləri yüksək qiymətləndirib.

Görüşdə, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində hazırkı vəziyyət, bu münaqişə nəticəsində soydaşlarımızın problemlərinin həlli ilə bağlı qarşıda duran vəzifələr, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

AZƏRBAYCAN ORDUSU

# Rusiya Federasiyası Xəzər Dəniz Donanmasının iki gəmisi Bakı şəhərinə gəlib

**Oktyabrın 16-da Rusiya Federasiyası Xəzər Dəniz Donanmasının "Dağıstan" böyük raket gözətçi və "Qrad Sviyajsk" kiçik raket gözətçi gəmilərinin Bakıya rəsmi səfəri başlayıb.**





Hərbi orkestrin müşayiəti ilə sahilə yan alan Rusiya hərbi gəmilərini Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin və Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin nümayəndələri qarşılayıblar.

Səfər ərzində gəmilərin komandanlığı və şəxsi heyəti Fəxri Xiyaban və Şəhidlər Xiyabanını ziyarət edəcək, Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri komandanlığı tərəfindən nümayəndə heyəti qəbul olunacaq və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbindəki tədris prosesi ilə tanış olacaqlar.

Gəmi heyətinin proqram çərçivəsində mədəni və tarixi abidələrlə tanışlıq məqsədilə Bakı şəhərinə gəzintisi, həmçinin futbol üzrə yoldaşlıq görüşünün keçirilməsi planlaşdırılır.

Səfər oktyabrın 19-dək davam edəcək.

* * *

Oktyabrın 16-da Bakıya rəsmi səfərə gələn Rusiya Federasiyası Xəzər Dəniz Donanmasının "Dağıstan" böyük raket gözətçi və "Qrad Sviyajsk" kiçik raket gözətçi gəmilərinin komanda heyətinin şəhərimizdə görüşləri başlayıb.

Nümayəndə heyəti Hərbi Dəniz Qüvvələri qərargahında, Səbail rayon İcra Hakimiyyətində və Bakı Beynəlxalq Dəniz Ticarət Limanında olub, bir sıra görüşlər keçiriblər.

Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı I dərəcəli kapitan Şahin Məmmədov "Dağıstan" və "Qrad Sviyajsk" gəmilərinin Bakıya səfərə gəlməsinin ölkəmizin hərbi dənizçilərinin Rusiyaya səfərinə cavab olaraq yerinə yetirildiyini vurğulayıb.

Rusiya Federasiyası Xəzər Dəniz Donanması nümayəndə heyətinin rəhbəri I dərəcəli kapitan Valeri Smirnov görüş zamanı Azərbaycanın, xüsusilə Silahlı Qüvvələrimizin inkişafının məmnunluq doğurduğunu diqqətə çatdırıb. İki ölkənin Silahlı Qüvvələrinin əməkdaşlıq əlaqələrinin inkişaf etdiyini bildirən V.Smirnov bu sahədə dövlətlərimizin başçılarının rolunu xüsusilə qeyd edib.

Səfər çərçivəsində qonaqlar paytaxtın görməli yerlərini gəzəcək, şəhərin tarixi və mədəni abidələri, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində tədris prosesi ilə tanış olacaq, dənizçilərimizlə futbol üzrə yoldaşlıq görüşü keçirəcəklər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**







# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq zamanı Ermənistan tərəfindən atəş səsləri eşidilib

Oktyabrın 16-da ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, Qazax rayonunun Bala Cəfərli kəndi yaxınlığında qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqdən əvvəl kənd sakinləri Azərbaycan tərəfdən monitorinqi həyata keçirən ATƏT-in Minsk Qrupunun həmsədirləri - İqor Popov (Rusiya), Pyer Andryu (Fransa), eləcə də ABŞ təmsilçisi C.Uorlikin köməkçisi David Salvo ilə görüşüblər.

Qısa söhbətləşmə zamanı kənd sakinləri beynəlxalq müşahidəçilərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin illərdir uzanaraq davam etməsindən, konfliktin həlli istiqamətində səylərin nəticəsiz qalmasından, ərazilərimizin erməni işğalında olmasından, Ermənistan Silahlı Qüvvələri tərəfindən mülki əhalinin, yaşayış məntəqələrinin, o cümlədən qeyri-hərbi obyektlərin daim atəş altında saxalanılmasından narazılıqlarını ifadə ediblər.

Sonra nümayəndə heyəti öz missiyasını yerinə yetirmək məqsədilə monitorinq keçiriləcək əraziyə yollanıb. Monitorinq qrupu təmas xəttinin qarşı tərəfinə keçməzdən əvvəl Ermənistan Silahlı Qüvvələrinin bölmələrinin yerləşdiyi istiqamətdən atəş səsləri eşidilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***16 oktyabr 2014-cü il***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 14 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Sarıcalı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və Göygöl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***17 oktyabr 2014-cü il***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 14 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Əbdürrəhmanlı, Qorqan, Ağdam rayonunun Yusifcanlı kəndləri yaxınlığında və Xocavənd rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Silahlı Qüvvələrin birləşmə və hərbi hissələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılır







***16 oktyabr 2014-cü il.***

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi ilə müəyyən olunmuş qrafikə uyğun Silahlı Qüvvələrin birləşmə və hərbi hissələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılır.***

Keçirilən yoxlama zamanı şəxsi heyətin və döyüş texnikasının vəziyyətinə, o cümlədən Silahlı Qüvvələrin qarşısında duran döyüş tapşırıqlarının yerinə yetirilməsinə diqqət yönəldiləcək.

Plana əsasən şəxsi heyətin, döyüş və avtomobil texnikasının, silah və sursatın, maddi-texniki təminat vasitələrinin yerdəyişməsinə hazırlıq, uzaq məsafəyə marş imkanları, hərtərəfli təminatı, sutkanın müxtəlif vaxtlarında və real iqlim şəraitində kolonlarla hərəkətdə qarşılıqlı əlaqə və idarəetmə bacarıqları, təyin olunmuş rayonlarda gizli yerləşmə, növbəti döyüş tapşırığının yerinə yetirilməsi üçün tam hazırlıq vəziyyətində olma imkanları yoxlanılacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan və Gürcüstan Müdafiə Nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planının layihəsi razılaşdırılıb



***Bakı şəhərində Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Gürcüstan Müdafiə Nazirliyi arasında ikitərəfli hərbi məsləhətləşmələr keçirilib.***

Danışıqlara Azərbaycan tərəfdən Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov, Gürcüstan tərəfdən isə Müdafiə Nazirliyinin Beynəlxalq Əlaqələr və Avro-Atlantik İnteqrasiya Departamenti İkitərəfli Əməkdaşlıq İdarəsinin rəisi cənab İosif Cikia rəhbərlik ediblər.

Görüşdə iki ölkə arasında hərbi, hərbi-texniki və hərbi-təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub, regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

Müzakirələrin yekunu olaraq "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Gürcüstanın Müdafiə Nazirliyi arasında 2015-ci il üçün ikitərəfli əməkdaşlıq Planı"nın layihəsi razılaşdırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Sıra hazırlığı*

# "Mətin addımlarla..."

***Artıq havadan payızın nəfəsi duyulur. Soyuq küləklər əsir, tez-tez səmanın üzü buludlarla örtülür, yavaş-yavaş göy üzündən yerə yağış ələnir. Belə sərin havalarda, payız günlərində şəxsi heyətin sıra hazırlığı məşğələsini izləmək xoşdur. Arabir buludların arasından boylanan günəşin şüaları gözümüzü qamaşdırırdı. Sanki ılıq şəfəq gözlərimiz qarşısında rəqs edirdi. Bəlkə, elə bu şüalar da əsgərlərin ayaq ritmlərinə köklənmişdi. Çünki şəxsi heyətin geniş meydanda sıra hazırlığı məşğələsi keçməsi yaxınlıqdan ötən hər kəsin diqqətini cəlb edirdi. Əsgərlərin eyni anda, eyni məqamda ayaqlarını yerə vurmasından yaranan ritmik səslər dalğa-dalğa ətrafa yayılırdı.***



Əsgərlər verilən əmr və tapşırıqları cəld hərəkətlərlə yerinə yetirərək gah sağa, gah sola, gah da geri dönürdülər. Ritmik səslər ətrafa yayılaraq, hər kəsin qəlbində əks-səda verib xoş duyğular oyadırdı. Azərbaycan əsgərinin bu şux addımlarını gördükcə, istər-istəməz adamın üz-gözündə təbəssüm oynayır, qəlbindən sevinc seli axıb ürəklərə, qəlblərə tökülürdü.

Bir azdan məşğələdə fasilə elan olundu. Arada yaranmış vaxtdan səmərəli istifadə edib şəxsi heyətlə tanış olmaq üçün onlara yaxınlaşdım. Əsgərlərə sıra hazırlığı keçən batareya komandiri baş leytenant İqbal Hüseynov bildirdi ki, indiyə qədər əxz etdiyi hərbi bilik və vərdişləri tabeliyində olan əsgərlərə həvəslə öyrətməyə səy göstərir.

- Əsas məqsədimiz şəxsi heyətin hərtərəfli hazırlığına nail olmaqdır, - dedi zabit. - Məqsədə çatmaq üçün bütün imkan və vasitələrdən səmərəli istifadə edirik. Bu gün sırada dayanan əsgərlər vəzifə borclarının öhdəsindən bacarıqla gəlirlər. Vətənə ürəkdən bağlı olan bu oğullar təkcə sıra hazırlığı məşğələsində deyil, başqa dərs və təlimlərdə də fəal iştirak edərək daim hərbi bilik və döyüş vərdişlərini artırırlar.

- Vətənə xidmət etmək, torpaqlarımızı göz bəbəyimiz kimi qorumaq hər birimizin övladlıq borcudur, - kiçik çavuş Elnur Məmmədzadə dedi. - Neçə illərdən bəri yurdumuzun erməni işğalçılarının tapdağı altında qalması məni çox narahat edir. Bu gün həmin əraziləri düşməndən azad etmək bizim üzərimizə düşür. Ona görə də hərbi bilikləri, silahların sirlərini həvəslə öyrənirik. Hamımız düşmənə nifrət hissi ilə yaşayırıq. Əgər torpaqlarımızın azadlığı uğrunda yenidən döyüşlər başlayarsa, hər an əldə silah öndə vuruşacağam. Hazırlığımı daha da artırmaq üçün dərs və məşğələlərin gedişində biliklərə dərindən yiyələnməyə çalışıram. Səmərəli keçirilən məşğələlər təcrübə və səriştəmizi daha da artırır. Bir qayda olaraq, zabitlər bizə dərslərin mövzularını nəzəri cəhətdən izah edirlər. Hərbi bilikləri, döyüş vərdişlərini mərhələ-mərhələ mənimsəyirik.

Günlər, həftələr ötüb keçdikcə döyüş hazırlığımız daha da artır. İndi sırada addımlayan hər bir əsgərin döyüş hazırlığı yüksək səviyyədədir. Nə sıra hazırlığı, nə də başqa dərs və məşğələlər bizi yormur. Çünki biz məşğələlərdə yeni vərdişlərə yiyələnirik. Yaxşı bilirik ki, xidmətdə qazandığımız uğurlar addım-addım bizi qələbəyə yaxınlaşdırır.

Əsgərlərdən Renat Şıxmətov, Ziya Əhmədli, Hikmət Məmmədov, Ruslan Kamilbəyli, Fuad Şahbazov, Orxan Nəsirli, Aqşin Baxışlı, Raqil İsgəndərli, Orxan Muğayev və başqaları da xidmətlərində uğurlar əldə etmək əzmində olduqlarını bildirdilər.

Şəxsi heyətin sıra hazırlığı məşğələsi davam edir. Budur, zabit İqbal Hüseynov yenə də əsgərlərə əmr və tapşırıqlar verir. Əsgərlər sırada inamla addımlayır, tapşırıqları qüsursuz yerinə yetirməyə çalışırlar. Təbii ki, bu inamlı addımlar onları böyük uğurlara qovuşduracaq.



**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

# XXX dərs

*(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

**Mövzu:** Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları və dövlət hakimiyyəti haqqında. Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu.

İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.

**Suallar:**

**1.Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında.**

**2.Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında.**

**3. Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu.**

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında*

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin əsas qanunu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının sədrliyi ilə yeni konstitusiya layihəsi hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də və 2009-cu ilin 18 martında keçirilən referendumlarda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında:

*Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.*

*Sərbəst və müstəqil qaydada öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.*

*Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.*

*Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.*

### *Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin siyasi-iqtisadi əsasları haqqında*

**Siyasi əsaslar:**

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir.

O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

**İqtisadi əsaslar:**

Azərbaycan Respublikasının mülkiyyəti toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Milli Banka mənsubdur. Milli Bank dövlətin müstəsna mülkiyyətidir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır.

### *Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zəruri oldu. Bu həm də ölkəmizin erməni təcavüzünə qarşı mübarizə aparması üçün lazım idi. Bir sözlə, Silahlı Qüvvələrin formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun birinci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Respublikasının əsas qanunu - Konstitusiyasında Silahlı Qüvvələrlə və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapmışdır. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır. Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün bir qanunun yox, qanunlar toplusunun qəbul edilməsi vacibdir. Odur ki, Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəl qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr etdi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın, əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq və Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir. Belə ki, qanunla müəyyən edilmiş hədlərdə və növlərdə hərbi xidmətə yarayan kişi cinsindən olan hər bir vətəndaş ordu sıralarında həqiqi hərbi xidmət keçməlidir.

Bu gün Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunmuş, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Quru Qoşunları, Hərbi Dəniz və Hərbi Hava Qüvvələrinin birləşmə və bölmələrində şəxsi heyətin intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar şəxsi heyətin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və yetişməsinə imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində müasir standartlara cavab verən tədris bazası mövcuddur. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Gizirlər Məktəbi və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Ümummilli liderimiz Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən, Hərbi Akademiya fəaliyyətə başlamışdır.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, dərslər keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır.

Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Silahlı Qüvvələrimizin möhkəmlənməsi və peşəkarlığına xidmət edir.

Azərbaycan Respublikasının 1994-cü ilin may ayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması NATO ilə əməkdaşlıqda yeni bir mərhələ idi. Silahlı Qüvvələrimizdə sülhməramlı tabor yaradılmış və bu taborun bir bölüyü Əfqanıstanda beynəlxalq sülhyaratma missiyasını müvəffəqiyyətlə yerinə yetirir.

1991-1993-cü illərdə Azərbaycan torpaqlarının 20 faizi düşmən tərəfindən işğal edilib. Azərbaycan dövləti ümummilli liderimiz Heydər Əliyev cənablarının rəhbərliyi altında respublikamızın ərazi bütövlüyünün bərpası üçün bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də çox böyük işlər görmüşdür. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın müstəqilliyinin 20-ci ildönümü münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda iştirak edərkən demişdir: **"Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıbdır və olmayacaqdır. Biz çalışırıq ki, məsələ tezliklə beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilsin. Bunun üçün biz diplomatik səylərimizi davam etdirəcəyik. Bizim işimiz haqq işidir. Biz heç bir başqa ölkənin torpağını zəbt etməmişik, heç bir başqa ölkənin torpağında bizim gözümüz yoxdur, baxmayaraq ki, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranıbdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Bu, həmişə belə olub, bu gün də belədir. Sadəcə, müvəqqəti olaraq işğal altına düşübdür. Ancaq bu işğal çox çəkə bilməz. Mən tam əminəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən yolla bərpa ediləcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar, ölkəmizin inkişafı, bölgədəki mövqelərinin möhkəmləndirilməsi nəticəsində istədiyimizə nail ola biləcəyik".**

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

Tarix

# Mətbuat vasitəsilə erməni terroru



(Əvvəli ötən nömrələrimizdə)

Həmin təlimata uyğun erməni drujinaları, hərbi dəstələri hazırlanmağa başladı. Rusiyanın özündə ermənilər daha fəal iş aparmağa başladılar. Ölkənin hər tərəfindən erməni könüllüləri rus ordusuna, intiqam alaylarına, erməni hərbi drujinalarına yazılırdılar.

Tiflisdə erməni əsilli bələdiyyə başqanı A.Xatisovun rəhbərliyi ilə Erməni Regional Bürosu fəaliyyət göstərirdi. Zaqafqaziya general-qubernatoru Vorontsov-Daşkov erməni könüllülərinin hərbi hazırlığına şəxsən özü nəzarət edirdi.

Bəhs etdiyimiz təlimata uyğun olaraq erməniləri hərəkətə keçirmək üçün Rusiya ermənilərindən ibarət xeyli miqdarda komitəçinin Şərqi Anadoluya göndərildiyi barədə o dövrdə çıxan mətbuat orqanlarında yazılar getmişdir. "Droşak" qəzeti yazırdı ki, ruslar tərəfindən vaxtilə Sibirə sürgün edilmiş daşnak komitəçilərindən təxminən 180 nəfəri dərhal azad edilərək Türkiyəyə göndərildi. Onlara konkret tapşırıqlar verilmişdi. Osmanlı Baş Komandanlığının 3-cü Ordu Komandanlığına 25-26 sentyabr tarixli məlumatında "Qafqazda "Hnçak" və "Daşnak" komitə nümayəndələrinin Osmanlı ermənilərini üsyana sövq etmək üçün Rusiya ilə anlaşdıqları bildirilirdi

Tiflisdə komitəçilərin rəhbərliyi ilə erməni könüllüləri toplanaraq rus ordusunun tərkibinə daxil edilirdilər. Rusların Balkanlardakı ordularının içərisində erməni hərbi birləşmələri vardı. Bolqar ordusu tərkibindəki bu birliklərdən birinə Andranik Ozanyan başçılıq edirdi. Andranikin rəhbərlik etdiyi birliklərdən biri Şimali İranda da rus orduları ilə birləşməyə müvəffəq olmuşdu. Qafqaz cəbhəsində digər erməni hərbi birliyi isə Osmanlı sərhədlərini keçmişdi. Armen Karo adlı keçmiş Osmanlı təbəəsinin kömək etdiyi general Dronun başçılıq elədiyi ikinci alay İğdıra girməyə hazırlaşırdı. Bu ordu Vanı işğal edəcək hərbi qüvvələrin bel sütunu sayılırdı. Hamazasp ve Kerrinin ("Dayı" deməkdir) başçılığı ilə üçüncü və dördüncü alaylar Qərb istiqamətində hərəkət edərək Qarsı işğal edəcəkdilər. Adları çəkilən bu erməni quldur dəstə başçıları sonralar Qafqaza keçərək qanlı cinayətlər törədəcəkdilər. Osmanlının arxa cəbhələrində, ermənilərin yaşadığı Şərqi Anadolu kənd və şəhərlərində vəziyyət daha ağır idi. Bu bölgədə fəaliyyət göstərən ingilis, fransız və italyan konsulluqları daxildəki erməni təxribatçılarının xarici əlaqələrinə yardım edirdilər. Əmniyyət Baş Müdirliyinin Baş Komandanlığa 31 yanvar 1915-ci ildə yazdığı 2086 saylı məktubda "İstanbul Erməni Katolikosluğunun İtaliya səfirliyinin vasitəsilə Eçmiədzin Kilsəsinə casusluq etdiyi" bildirilirdi. Ermənilər türk ordusuna arxadan zərbə vurmaqda idilər. Osmanlı dövləti bilmirdi ki, müharibə işləri ilə, yoxsa "erməni məsələsi" ilə məşğul olsun.

Müharibəyə qədərki dövrdə ermənilər Şərqi Anadoluda əməlli-başlı silahlanmışdılar. Rusiyadan, İran üzərindən bu bölgələrə silah-sursat daşınmışdı. Hətta terrorçu erməni qrupları bir neçə dəfə, ayrı-ayrı bölgələrdə silahlı üsyanlar təşkil etmişdilər. Hələ 1903-cü ilin sonlarında Andranikin rəhbərliyi ilə Siirt vilayətinin Sasun bölgəsində nəzarəti də ələ keçirmişdilər. Osmanlı hökuməti 1904-cü ilin aprelində terrorçuları məhv etmək üçün hərbi hissələrdən istifadə etmişdi. Ermənilər ayrı-ayrı dəstələrə bölünərək müqavimət göstərmişdilər. Hadisələr böyüyüb qiyama çevrilmişdi. "Daşnak" partiyasının üzvlərindən olan V.Kudulyan "Andranikin müharibəsi" kitabında yazırdı: "...Sasunda baş tutan toqquşma Muşdan başlamış bütün Van vilayətinə yayıldı. Xarici ölkələrin konsulları Andranikə təklif etdilər ki, bu rayonu tərk etsin. Qafqazda və İranda güclü şəbəkə qurmuş daşnaklar bizə hər cür kömək edirdilər, onlar bizi silah və hərbi sursatla təmin edirdilər. Səhra komandirləri özlərinə Andraniki rəhbər seçmişdilər. Biz minə qədər düşməni məhv etmişdik". Andranik həmin vaxtlar duruş gətirə bilməyib Qafqaza qaçmışdı, özü ilə həmin quldur dəstələrini də gətirmişdi. Birinci Dünya müharibəsi başlayan kimi Osmanlı dövlətinə qarşı rusların tərəfində vuruşmağa və minlərlə dinc sakini vəhşicəsinə qətlə yetirməyə başlamışdı.

1914-cü ilin sonlarına doğru artıq ermənilər hər ehtimala qarşı İngiltərəyə də "qarmaq atırdılar". 12 noyabr 1914-cü ildə ermənilər Qahirədəki ingilis yetkililərinə belə bir təklif vermişdilər: "Kilikiya erməniləri Mərsin, İsgəndərun və ya Adanaya atılacaq hərbi desantlara hər cür yardım etməyi öz üzərlərinə götürür. Biz könüllü olaraq ingilislərə dağ şəraitində də kömək edəcəyik". Bunları nəzərə alan rus səfiri 24 fevral 1915-ci ildə öz ölkəsinin rəhbərliyindən "ermənilərin türklərə qarşı istifadə edəcəkləri silahların İsgəndəruna, fransız və ingilislərə verilməsini, Fransa və İngiltərənin ermənilərlə birgə hərəkət etməsini məqsədəuyğun hesab edirdi, üstəlik bu ölkələrdən ermənilərə yardımda bulunmağı da rica edirdi".

Bu dövlətlər də bilirdilər ki, ermənilər türklərə qarşı müharibədə onlara yardım edəcək ən yaxşı vasitədir.

1917-ci ilin sonu, 1918-ci ilin əvvəlində cəbhədən rus ordularının geri çəkilməsi erməniləri öz fəaliyyətlərini Cənubi Qafqaza keçirməyə məcbur edirdi. Əllərində rusların verdiyi çoxlu silah-sursata sahib olan ermənilər planlarını dəyişdilər. Naxçıvanın, Qarabağın və Zəngəzurun işğalını həyata keçirməyə başladılar. Antanta və Rusiyanı öz arxasında hiss edən ermənilər yerli azərbaycanlılara divan tutmağa başladılar. Toqquşmalar artıq iki xalqın müharibəsi həddinə gəlib çıxdı.

Erməni təşkilatlarının dövlət qurmaq ideyasını Cənubi Qafqaza keçirməsinin səbəbləri dövrün mətbuatında da öz əksini tapmışdı. Hələ 1907-ci ildə Erməni İnqilabi Federasiyası - "Daşnaksütyun" partiyası Türkiyədə "İttihad və Tərəqqi"nin köməyinə arxalanırdı. Hətta partiyanın V qurultayında daşnaklar gənc türklərin Türkiyədə demokratik, konstitusion dövlət qurmaq ideyalarına dəstək olan bəyanat da vermişdilər. İşin gizli məqamları ondan ibarət idi ki, gənc türklər Qafqazdakı erməni əhali ilə əlaqələrə mane olmayacaqdı, başqa sözlə, ermənilərin Rusiyada öz müqəddəratını təyin etməsinə dəstək verəcəkdi. Erməni mətbuat orqanlarından olan "Hayrenik" bu məsələdən bəhs edərkən ermənilərin bir deyil, bir neçə muxtar və müstəqil dövlət qurmasından bəhs edir. Bunlar Qafqaz Ermənistanı, Türkiyə Ermənistanı, Kilikiya Ermənistanı olacaqdı.

Bir qədər keçəndən sonra onlar anladılar ki, Osmanlı federativ dövlət qurmaq ideyasını yaxın buraxmır və ermənilərə heç vaxt tələb etdikləri milli muxtariyyət və arzuolunan daha yüksək statusu verməyəcək, onda taktikanı dəyişdilər. Onlar dövlət qurmaq planlarını tədricən Cənubi Qafqaza keçirməyə və Rusiya ilə Osmanlı arasında münasibətlərin soyuqluğundan istifadə etməyə başladılar. 1915-ci ildə ermənilərlə bağlı Şərqi Anadoluda yerdəyişmə - köç proseslərinin aparılması Qərb dövlətlərini və Rusiyanı "erməni dövlətini" harada yaradacaqları barədə planlarını dəyişdirməyə vadar etdi. Rusiya ilə erməni siyasi təşkilatları, xüsusən daşnaklar arasında müttəfiqlik münasibətləri də həmin "erməni dövləti" ideyasını gerçəkləşdirmək arzusundan doğdu. Rusiya "Daşnaksütyun" partiyasına öz ölkəsində çox sərbəst fəaliyyət göstərmək imkanı yaratdı, Tiflisdə 1912-ci ildə yaradılan Erməni Milli Şurası və onun icraedici orqanları dövlət səviyyəsində dəstəkləndi. Erməni şovinist təşkilatları bu Şurada birləşdilər. Hələ o zaman Rusiya öhdəsinə götürmüşdü ki, Türkiyə ilə müharibə olarsa, Rusiyanın, İngiltərənin və Fransanın himayəsi ilə Türkiyənin tərkibində ermənilərə muxtariyyət veriləcək...

Ermənilər digər Cənubi Qafqaz xalqlarından fərqli olaraq daha üstün durumda idilər. Onlar I Dünya müharibəsi dövründə Rusiyanın köməyi ilə erməni hərbi birləşmələri yaratmış və türklərə qarşı vuruşlarda iştirak etmişdilər. Bu hərbi hissələrdən Erməni Milli Korpusu yaradılmışdı. Bu korpus üç diviziyadan və bir briqadadan, ayrıca milli hərbi hissələrdən ibarət idi. Müsəlman hərbi korpusunu yaratmaq işi isə "çətinliklərlə" üzləşirdi.

Əvvəlcə Brest-Litovskda Sovet Rusiyası ilə Almaniya arasında bağlanan sülh, daha sonra 1918-ci ilin dekabrında Rusiya ilə Türkiyə arasında bağlanan barışıq müqavilələri ermənilərin ürəyindən olmadı. Həmin dövrdə çıxan mətbuat orqanları yazırdılar ki, "Rusiya ermənilərə xəyanət edərək onları türklərə satdı, artıq Şərqi Anadoluda erməni dövləti yaratmaq işinə birdəfəlik son qoyuldu, indi ermənilər Qafqazı ələ keçirmək barədə fikirləşməlidirlər. Nə üçün bu dövlətin sərhədləri Bakıya qədər uzanmasın".

Rus ordusunun işğal olunmuş türk vilayətlərindən çıxması nəticəsində əldə edilən bütün silahlar erməni korpusuna və erməni əhaliyə paylandı. Bu durumdan faydalanan daşnaklar köməksiz türk-müsəlman əhaliyə divan tutmağa və məqsədli şəkildə kənd və şəhərlərdə xalqı qırmağa başladılar. Bu zaman türk ordusu Qərb cəbhəsində müharibə içindəydi, bu əhalinin köməyinə gələ bilmirdi, ermənilər isə vəhşiliklərini davam etdirirdilər. O zaman Türk Ordu Komandanlığı köməksiz əhalini xilas etmək üçün barışıq sazişini pozmağa məcbur oldu. O zaman Rus Komandanlığı xəbərdar edilirdi ki, "bu addım ruslara qarşı deyil, türk-müsəlman əhaliyə əsl soyqırımı həyata keçirmiş ermənilərə qarşıdır".

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015" Avropa Oyunları Yaxın Şərqin və Şimali Afrikanın 20 ölkəsində yayımlanacaq




"Bakı-2015" Avropa Oyunları Ərəb Dövlətlərinin Yayım Birliyi (ASBU) ilə müqavilə imzalayıb. Müqaviləyə əsasən, birinci Avropa Oyunları Yaxın Şərqin və Şimali Afrikanın 20 ölkəsində yayımlanacaq. Həmçinin 17 gün davam edəcək yarışların tam şərhlərlə görüntüləri və lent yazıları ASBU-ya üzv olan yayım şirkətlərinə ərəb dilində ödənişsiz şəkildə birbaşa təqdim ediləcək. ASBU-nun baş direktoru Salah Eddine Maui deyib: "Bakı-2015" ilə bu mühüm müqaviləni imzalamaq bizim üçün böyük şərəfdir. İlk Avropa Oyunları bütün ərəb ölkələrindəki azarkeşlər üçün böyük idman bayramı olacaq. Biz bu tarixi hadisəni və həyecanlı yarışları yayımlamağı səbirsizliklə gözləyirik".

## Bakıda şahmat üzrə "Qran-pri" turniri başa çatıb



Şahmat üzrə Beynəlxalq Şahmat Federasiyası (FIDE) "Qran-pri" turnirinin üçüncü mövsümünün rəsmi bağlanış və mükafatlandırma mərasimi keçirilib.

AzərTAc xəbər verir ki, turnirdə birinci-ikinci yerləri 11 mümkün xaldan 6,5 xal toplamış italyan Fabiano Karuano və israilli Boris Gelfand tutublar. Üçdən səkkizədək olan yerlərə hərəyə 6 xal toplamış rusiyalı qrossmeysterlər Aleksandr Qrişşuk, Sergey Karyakin, Pyotr Svidler, Yevgeni Tomaşevski və amerikalı Hikaru Nakamura sahib olublar. Azərbaycan şahmatçısı Teymur Rəcəbov 5,5 xalla doqquzuncu yerlə kifayətlənib.

## Kubokda püşk atıldı: kimlər qarşılaşacaq?



Azərbaycan Kubokunda 2014/15 mövsümünün püşkü atılıb. ANS PRESS-in məlumatına görə, AFFA-nın inzibati binasında baş tutan mərasimdə 1/16 və 1/8 final mərhələlərində qarşılaşacaq cütlər müəyyənləşib. İlk mərhələdə cəmi 4 komanda iştirak edəcək və 2 oyun baş tutacaq. Bu cütlərin qalibləri 1/8 finaldakı 1/4 komandaya qoşulacaq. "Xəzər-Lənkəran" 1/8 finalda "Araz Naxçıvan"ı sınağa çəkəcək. "Qarabağ Lokomotiv" - "MOİK", "Neftçi" "Qaradağ Lökbatan" - "Zirə" cütünün qalibi ilə qarşılaşacaq. Qeyd edək ki, püşkatmaya 18 klub qatılıb. Bunlardan 10-u Topaz Premyer Liqasını, 8-i I divizionu təmsil edir.

## Cüdoçumuz üçün rusiyalı rəqib



Daşkənddə keçiriləcək cüdo üzrə Qran-pri turnirinin püşkü atılıb.

Apasport.az saytının məlumatına görə, yarışda mübarizə aparacaq yeganə təmsilçimiz Mahir Cəfərli də rəqibini tanıyıb. Belə ki, 66 kq çəki dərəcəsində tatamiyə çıxacaq həmyerlimiz 1/16 final mərhələsindən azaddır. O, 1/8 finalda rusiyalı Denis Lavrentiyevlə qarşılaşacaq. Qeyd edək ki, oktyabrın 16-da start götürəcək yarış 3 gün davam edəcək.

## Azərbaycan klubu "şortik" geyinməkdən imtina etdi



"Azərreyl" voleybol klubu mövsümə yeniliklə başlayacaq. Apasport.az saytının məlumatına görə, Vüqar Əliyevin yetirmələri Azərbaycan klubları arasında ilkə imza atacaq.

Belə ki, "dəmiryolçular" geyimlərində dəyişiklik etməyə qərar veriblər. Bakı təmsilçisi Super Liqanın və "Çelenc Cup"un oyunlarına həmişə olduğu kimi "şortik"də deyil, "yubka"da - ətəklikdə çıxacaqlar.

Bu geyimdən dünyanın bir sıra aparıcı klubları istifadə etsə də, çempionatımızda ilk hadisə kimi tarixə düşəcək.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Baş leytenant Əliyev Toğrul Namiq oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılı

Müddətdən artıq xidmət edən hərbi qulluqçu Aslanov Etibar İlham oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

# "Hər addım uğrunda"



***Hər yaradıcılıq diqqəti çəkmir. İstər publisistikada, poeziyada, rəngkarlıqda olsun, istərsə də nəsrdə.***

***Mövzu həyatı əks etdirirsə, (təbii ki, bədii təxəyyülə söykənməklə) ənənəvilik müstəvisində özünəməxsusluğuyla səciyyəvidirsə, ictimailəşir. Azərbaycan Silahlı Qüvvələrinin zabiti, peşəkar hərbi jurnalist mayor Vahid Məhərrəmovun bədii yaradıcılığı diqqəti çəkir. Onun nəsri oxunaqlıdır; təqdim edilən mövzular həyatın bir anı (anları kiçik miqyasda zaman) olduğu üçün.***




Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Vahid Məhərrəmovun "Hər addım uğrunda" nəsr kitabının təqdimetmə mərasimi oldu. Tədbiri tanınmış jurnalist Nemət Veysəlli açaraq yazıçının özü və sözü haqqında ətraflı danışdı, yaradıcılığını şərtləndirən amilləri təhlil etdi.

Tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifli kitaba daxil edilən hekayələrin, povestin bədii məziyyətlərini qeyd edərək bildirdi ki, Vahid Məhərrəmovun əsərləri çağdaş ədəbiyyatımızda "boyu görünən" əsərlərdəndir. Müharibə, müharibənin ağrı-acıları, mənəvi-psixoloji sarsıntıları, vətənsevərlik - əsərlərin başlıca leytmotividir və bunların məhz bu gün yazılması təqdirəlayiqdir.

Yazıçı-jurnalist, pedoqogika üzrə fəlsəfə doktoru Zemfira Məhərrəmli kitabda əksini tapan mövzuların gənc nəslin vətənpərvərlik tərbiyəsindəki əhəmiyyətli rolundan danışdı.

"Azərbaycan" jurnalının baş redaktor müavini Südabə Ağabalayeva, polkovnik-leytenant Zakir Hüseynov, hərbi jurnalist Mərdan Hüseynli, Seymur Şahbazov, şair Qəşəm Nəcəfzadə, ədəbiyyat həvəskarı İbrahim Xankişiyev çıxışlarında "Hər addım uğrunda" kitabının bədii dəyərindən, ayrı-ayrı hekayələrin mövzu, üslub, dil xüsusiyyətlərindən danışdılar, bu kitabın ədəbi ictimaiyyətin marağına səbəb olacağını vurğuladılar.

**"Azərbaycan Ordusu"**

# Hərbi xidmət müddətində test

*Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində də təkrarlamaq imkanınız var. Bu imkanı Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq. Növbəti həftəyə kimi göndərilən cavablar qiymətləndiriləcək.*




*Gecikənlər poçt göndərişinin üzərindəki möhürə əsasən nəzərə alınacaq.*

*Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:*

**I yer - 150 AZN**
**II yer - 100 AZN**
**III yer - 50 AZN**

**"Azərbaycan Ordusu"**

***1. Qarabağ xanlığının Rusiyaya ilhaq edilməsi haqqında müqavilə nə vaxt imzalanıb?***

a) 1800
b) 1805
c) 1810
d) 1815

***2. 1450-ci ildə Bakını kim tutub?***

a) Şah Abbas
b) Şah Qasım
c) I Təhmasib
d) Sultan Səlim

***3. Atabəy Cahan Pəhləvanın hakimiyyəti dövrü hansı illəri əhatə edir?***

a) 1170-1180
b) 1170-1186
c) 1170-1190
d) 1175-1186

***4. Bölükdə gün növbətçilərinin sayını kim müəyyən edir?***

a) qərargah rəisi
b) alay komandiri
c) bölük komandiri
d) bölük komandirinin müavini

***5. Bölük növbətçisinin köməkçisinə ləvazimatını çıxartmadan və soyunmadan nə qədər müddətə istirahət etməyə icazə verilir?***

a) 3 saat
b) 5 saat
c) 2 saat
d) 4 saatdan çox olmayaraq

***6. NBM növbətçisi köməkçisinin vəzifəsinə hansı daxil deyil?***

a) daim nəzarət-buraxılış məntəqəsində olmalıdır
b) gələn şəxslərin alayın (briqadanın) ərazisinə düzgün buraxılmasına cavabdehdir
c) hər hansı əmlakın düzgün çıxarılmasına (aparılmasına), gətirilməsinə cavabdehdir
d) gün ərzində bütün müraciətləri cavablandırmalıdır

***7. Manqa komandiri əsgərlərə (matroslara) növbədənkənar neçə xidmət naryadı verə bilər?***

a) 1
b) 2
c) 3
d) 4

***8. İntizam qaydasında həbs olunmuş əsgər və matroslar hissə və ya qarnizon haupvaxtına kimin müşayiəti ilə göndərilir?***

a) müddətdən artıq xidmət çavuşlarının
b) konvoy nəfərlərinin
c) müddətli xidmət çavuşlarının
d) qərargah növbətçisinin

***9. Albaniyada xristianlıq neçənci əsrlərdə yayılıb?***

a) V əsr
b) VI əsr
c) VI əsrin sonları
d) V əsrin sonları - VI əsrin əvvəlləri

***10. Xürrəmilərin ərəblərə qarşı II üsyanı nə vaxt baş verib?***

a) 805-ci il
b) 808-ci il
c) 806-cı il
d) 810-cu il

***11. Şirvanda zəlzələ neçənci ildə olub?***

a) 1120-ci il
b) 1194-cü il
c) 1196-cı il
d) 1192-ci il

***12. Monqollar Gəncə şəhərini neçənci ildə işğal ediblər?***

a) 1225-ci il
b) 1230-cu il
c) 1235-ci il
d) 1240-cı il

***13. Əlincə qalasının müdafiəsi neçə il davam edib?***

a) 12
b) 13
c) 14
d) 11

***14. Marağa rəsədxanası neçənci ildə açılıb?***

a) 1250-ci il
b) 1259-cu il
c) 1205-ci il
d) 1268-ci il

***15. Şərq tarixşünaslığının qızıl əsrləri hansı dövrləri əhatə edir?***

a) VI-VII
b) VIII-XIV
c) VIII-XV
d) X-XII

***16. "Molla Nəsrəddin" jurnalının naşiri kimdir?***

a) Ö.M.Nemanzadə
b) M.Ə.Sabir
c) C.Məmmədquluzadə
d) Ü.Hacıbəyov

***17. Hansı əsərin müəllifi Səməd Vurğundur?***

a) "Fərhad və Şirin"
b) "Bahadır və Sona"
c) "Vərqa və Gülşa"
d) "Yusif və Züleyxa"

18. **"Gülüstan" poemasının müəllifi kimdir?**

a) S.Rüstəm
b) R.Rza
c) B.Vahabzadə
d) Qabil

***19. "Göydə Allah tək olduğu kimi, yer üzündə də ancaq bir padşah olmalıdır. Bəşəriyyətə iki padşah ağalıq edə bilməz" fikrini hansı sərkərdə deyib?***

a) Xətai
b) Atilla
c) Əmir Teymur
d) Sultan Bəyazid.

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavinləri: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Əbülfət QASIMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 325 Nüsxə 4570 |